

**SƏYYAD ARAN,**
YAP Siyasi Şurasının üzvü,
Milli Məclisin deputatı

## HEYDƏR ƏLİYEV - AZƏRBAYCAN TARİXİNİN FENOMENİ

Sovet ideologiyasının «şəxsiyyətə pərəstiş» nəzəriyyəsi tamamilə iflasa uğradı, yəni bütün dünyada qəbul edilmiş «tarix şəxsiyyətləri deyil, şəxsiyyətlər tarixi yaradır» həqiqəti indi artıq köhnə sovet məkanında da təsdiqini tapdı. Bu baxımdan Heydər Əliyev fenomeni də Azərbaycan və dünya tarixinə öz parlaq səhifələrini yazmışdır və yazmaqda davam edir.

1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyev hələ sovet dövründə peşəkar dövlət xadimi, qeyri-adi siyasətçi olduğunu sübut etmişdi. İllər keçdikcə Heydər Əliyevin istər sovet Azərbaycanına başçılıq edərkən gördüyü işlərin nəhəngliyi, istərsə də SSRİ Nazirlər Sovetinin birinci müavini olarkən bir siyasətçi kimi uzaqgörənliyi adamı heyrətə salır. Azərbaycanda qurub-yaratdıqlarını bir kənara qoyaraq elə «Naxçıvanski» adına hərbi məktəbi çətinliklə də olsa, Bakıda yaratmağa «mərkəzi» razı salması Heydər Əliyevin peyğəmbəranə siyasətçiliyindən xəbər verir. Bu gün Azərbaycan ordusunun ilkin özəyi, köklü bazası məhz orada yetişir. Onun siyasətini, siyasi uzaqgörənliyini, idarəçilikdə və dövlətçilikdə həm orijinal, həm də qeyri-adi manevrlərini, jestlərini böyük Amerika bəstəkarı İvesin musiqisi ilə eyniləşdirmək olar. Məlumdur ki, İves musiqidə qeyri-adi ritmlər işlətməklə məşhur idi və müasirləri hər dəfə onu yeni əsərlərini heyranlıqla dinləyirdilər.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev təkcə Azərbaycanı parçalanmaqdan qurtarmadı, həm də illər keçdikcə ölkəmizi dünyada sözü keçən, sayılan bir dövlətə çevirdi.

Hələ XIX əsrin ortalarında fransız şairi və filosofu Şarl Bodler (1821-1867) «Tarix və şəxsiyyətlər» essesində yazırdı: «Mənim üçün tarix fenomen şəxsiyyət toplularından ibarətdir, məncə dünyaya böyük şəxsiyyətlər gəlməsə, tarix bir elm kimi silinib gedərdi». Bu deyim (yalnız bu deyimmi?) Heydər Əliyev kimi uzaqgörən, dünya şöhrətli siyasətçinin yüzdə-yüz həyat tərzinin sanki boyuna biçilib. Böyük alman filosofu Fridrix Nitşe özünün «fövqəlinsan» terminini yaradanda böyük şəxsiyyətləri həm də «tarix yaradanlar» adlandırırdı.

Mənim məqsədim 1993-cü ildən üzübəri Heydər Əliyevin gördüyü nəhəng siyasi, iqtisadi işləri – ölkənin parçalanmasının qarşısını alması, vətəndaş savaşına son qoyması, cəbhədə atəşkəs əldə etməsi, bütün bunlarla yanaşı, özəlləşdirmənin geniş vüsət alması, torpağın kəndlilərə paylanması «Əsrin müqaviləsi»si

nın imzalanması, əfsanədən reallığa çevrilmiş Bakı-Ceyhan kəmərinin çəkilişinin başlanması və s. və i.a. — hal-hazırda yazılır və yazılacaq da! – təhlil etmək deyildir. Bu barədə çox yazmaq olar, bu işlərin dərin təhlili üçün illər yox, qərinələr gərəkdir. Mənim isə, başlıca məqsədim antik dövrdən başlayaraq dünya filosoflarının tarixi şəxsiyyətləri müqayisəli təhlil edərək, tarixin ayrı-ayrı kəsiklərində həmin şəxsiyyətlərə verdikləri qiymətləri araşdıraraq, Heydər Əliyev fenomeninin böyüklüyünü və bənzərsizliyini bir daha nəzərə çatdırmaqdır.

Plutarx «Tarix» kitabında yazırdı: «Təsəvvür edin ki, Makedoniyalı İsgəndər, Hannibal, Sezar, Pompey bu dünyaya gəlməmişdi, görün tarix necə miskin görünərdi...»

Bu fikirlər eramızdan əvvəl deyilsə də, Heydər Əliyev dühasının böyüklüyünə necə də uyğun gəlir. Heydər Əliyev olmasaydı, XX əsrin ikinci yarısı, XXI əsrin əvvəli Azərbaycan geridə qalmış, solğun və zəlil bir aqrar ölkəsi olaraq qalacaqdı. Dünya düzəninin bu dolaşıq və çətin anında isə yəqin ki, Azərbaycan parçalanardı və dövlətçiliyimiz süquta uğrayardı.

Heydər Əliyev tarixi şəxsiyyət deyil, o həm də tarix yaradan, tarix yazandır. Böyük Fransız hakimi və filosofu Jak Lakan (1901-1981) «Mətinlər» əsərində insanları ayrı-ayrı təbəqələrə ayırırdı: «Elə şəxsiyyətlər var ki, bütöv bir millətin həyatında silinməz izlər qoyaraq, öz xalqlarına başçı olmaq üçün doğulmuşlar. Yəni fövqəlinsanlar, fenomen şəxsiyyətlər elə dahi, düha kimi doğulurlar».

Həmin dühalar ölkələrinin ən çətin anında varid olaraq, tökülən qardaş qanının qarşısını alaraq millətin genefondunu xilas edir, nəinki ayrı-ayrı şəxsləri. Kəndirdən xilas olanların nankorluğu və namərdliyi isə tarix və tanrı tərəfindən «qiymətləndiriləcək». Bu gün Heydər Əliyevin siyasətinə ağız büzüb müxalifətdə dayanan siyasətbazların bir çoxunu 1993-cü ildə Surət Hüseynovun qurduğu dar ağacından elə Heydər Əliyevin özü xilas eləmədimi?

Möhtərəm Prezidentimizin atdığı demokratik addımların dünya miqyasında qiymətləndirilməsi sayəsində 2001-ci ildə Azərbaycan Avropa Şurası üzvlüyünə qəbul edildi və 2 il sonra Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyev bu mötəbər quruma vitse-prezident seçildi. Əslində, bu həm Heydər Əliyevin məqsədyönlü, uzaqgörən siyasətinə dəstək, həm İlham Əliyevin böyük siyasətdəki uğurlarına layiqli qiymət, həm də bəzi cılız siyasətçilərə Avropa miqyaslı bir cavab idi. «Elin gözü tərəzidir» – deyimi bu yerdə daha sərrast səslənir. Burada «atalar və oğullar» tandemini nəzərə almaq lazımdır. Məşhur Şotlandiya tarixçisi Tomas Karlil (1881-1975) «Genlər» əsərində nəsillərin oxşarlığı məsələsini təhlil edərək belə nəticəyə gəlmişdi ki, çox hallarda nadir zəkaların, dünya şöhrətli adamların övladları istedadlı olur, lakin əgər bu baş verirsə, həmin övladların adi ailələrindən çıxmış adamlardan daha uzaqgörən olması şəksizdir, çünki genin aktivliyi istər-istəməz beynin daha aktiv dalğalar tutmasına səbəb olur, şüurun daha uzaq dalğaları tutmasısa zəkanın işıqlı olması deməkdir. Karlildən daha dərinə gedən müasir fransız etnoloqu Levi-Stross Klod «Mifologiya» əsərində şəxsiyyətləri nağıl qəhrəmanlarına bənzədərək: «Əgər qəhrəmanlar yoxdursa, deməli, şəxsiyyətlər də mövcud deyil, belə isə millətlərin, xalqların intibahı da sual altındadır» – yazırdı.



**Heydər Əliyev seçilmiş şəxsiyyətdir, fövqəlinsandır.** Çünki böyük bir xalqın taleyində silinməz izlər buraxıb, çünki öz xalqını dəfələrlə fəlakətdən xilas edib, çünki həmişə öz xalqının səsinə səs verib, xalqıyla nəfəs alıb, ömrünün qalan hissəsini də xalqına bağışlayıb. Onun bu gün gördüyü işlərin çoxu bəlkə də yarım əsr irəliyə hesablanıb, gələcək nəsillərin həyatına əsrarəngiz naxışlar vurur. Otuz il qabaq Heydər Əliyevin etdiyi siyasi gedişlər müstəqilliyimizin qazanılmasında müstəsna rol oynadısa, (bu həqiqəti hətta bizi istəməyənlər də etiraf edir) bu gün onun siyasi manevrləri siyasət körpələri üçün anlaşılmaz ola bilər, ancaq sabah xalqımızın həyatında daha layiqli rol oynayaraq öz bəhrəsini hökmən verəcəyi şəksizdir. Bunu Onun keçib getdiyi yol və son on ildə Azərbaycana uğurla rəhdərlik etdiyi bir daha təsdiqləyir. Bu gün bütün dünyada Azərbaycan deyiləndə Heydər Əliyev başa düşülür, Heydər Əliyev deyəndə Azərbaycan xatırlanır. Bu təkcə böyük bir siyasətçinin deyil, seçilmiş fenomen bir şəxsiyyətin xoşbəxtliyidir. Yanılmıramsa, bəşər tarixində hələ belə bir tendensiyaya rast gəlinməmişdir.

İndi də Herodotun «Tarix» kitabına nəzər salaq. O yazırdı ki, qəhrəmanlarına qarşı təbəələrinin sevgisi aldadıcı olur, bu günün qəhrəmanı sabah mühakimə olunur. Aristotel isə ona cavab verərək qələmə alırdı ki, xalq qəlbində heykəl ucaltdığı qəhrəmanlarını daim yaşadır, cansız heykəlləri isə uçurur.

Bu gün xalqımızın qəlbində Heydər Əliyevə sevgisi və inamı hüdudsuzdur. Xalq öz xilaskarına inanır. İnanır ki, müvəqqəti olaraq itirilmiş torpaqlarımız məhz möhtərəm prezidentimizin dərin zəkası, müdrik siyasəti nəticəsində geri qaytarılacaq, qaçqınlarımız yur-yuvalarına dönəcəklər. İnanır ki, illər keçdikcə həyatımız, güzəranımız get-gedə gözəl, firəvan, bol, bərəkətli olacaq. İnanır ki, millətimizin imzası millətlər içində daha layiqli görünəcək. İnanır ki, gələcəyi daha xoşbəxt, daha işıqlı olacaq. İnanır ki, bütün arzuları yalnız və yalnız Onun başçılığı ilə çin çıxacaq. Yalnız O, bütün bunları yaratmağa qabildir. O yaradıcıdır, O qurucudur. O öz sevgisini öz əməlləri ilə xalqa dəfə-dəfə sübut edib, həyatının mənasını gecəli-gündüzlü xalqa xidmətdə görüb... Qurub yaratmaq eşqi onun həyat kredosuna çevrilib. Ürəyini xalq yolunda məşələ çevirmək. Budur Onun tarixdə qalacaq obrazı. Vaxtilə fransız alimi Jan Leron Dalanber yazırdı: «Əsl insan ailəsini özündən, vətənini isə ailəsindən üstün tutmalıdır». Ömrünü, həyatını xalqına bağışlayan dünya şöhrətli siyasətçinin ağır 20 Yanvar günlərində öz xalqıyla həmrəy olaraq səsini ucaldıb dünyanı haraylaması, həyatını təhlükə altına qoyaraq sovet məmurlarına sinə gərməsi əsl vətəndaş mövqeyindən xəbər verirdi ki, möhtərəm prezidentimizin həyat yolu belə misallarla zəngindir.

XV əsr böyük italyan filosofu Marsilio Fiçino (1433-1499) «Şəxsiyyətlər» kitabında müdrik Süleymandan başlayaraq eramızın on ikinci əsrinə qədər görkəmli şəxsiyyətlərin həyatlarının ayrı-ayrı dönəmlərini müqayisəli təhlil edərək sonda heyrətamiz nəticəyə gəlir: «Seçilmiş kitablar kimi, görkəmli şəxsiyyətlər də tarixin təkə-

rini irəli aparmaq üçün lazımdır. Qəribə burasıdır ki, əksərən ekstremal şəraitdə görkəmli şəxsiyyətlər yetişir. Ona görə yetişir ki, bütöv bir milləti fəlakətdən qurtarsın. Deməli, şəxsiyyətlər tarixin müxtəlif dönəmlərində və zərurətdən yetişir. Şəxsiyyətləri zaman lazımi dönəmlərdə yetişdirir».

Yuxarıdakı nəticəni möhtərəm prezidentimizin həyatı ilə uzlaşdıranda Fiçinonun uzaqgörənliyinə mat qalırsan. Təxminən beş əsr yarım əvvəl gəlinmiş nəticə bu günümüzlə necə də həmahəng səslənir.

İngilis folosofu Tomas Qobbs (1588-1679) «İnsan təbiəti» əsərində digər ingilis mütəfəkkiri Frensis Bekonun (1561-1626) «Şüur» kitabındakı fikirləri genişləndirərək və dərinləşdirərək yazırdı ki, insan ağlı, insan zəkası fövqəlinsanlarda yarım əsr, bir əsr və bir neçə əsr qabağı görməyə qadirdir. Belə seçilmişlər, nadir zəka sahibləri yaradıcı olduqda həm mənsub olduqları millətə, həm də bəşəriyyətə misilsiz xidmətlər göstərirlər.

Heydər Əliyev məhz belə zəka sahibidir, seçilmişlərdəndir.

İsveçrə mütəfəkkiri Deni de Rujmon (1906) «Siyasət» kitabında yazırdı ki, siyasət dəqiq elmdir, bu baxımdan siyasəti riyaziyyatla eyniləşdirmək olar. Siyasət kamil elmdir. Siyasətə «iyrənc» bir sənət kimi baxanlara isə deyirəm: bu şübhəsiz ki, cılız siyasətbazların terminidir. Mənim zənnimcə siyasət müdriklərin işidir. Siyasətdə ləyaqətli olmaqsa əsl peşəkarların işidir. Çünki müdriklər üçün ləyaqət ən önəmli məsələdir.

Şübhəsiz Rujmonun siyasətdə ləyaqətə verdiyi önəm əsl siyasətin əslində nə olduğunu bizim siyasət oyunbazlarına başa salmalıdır.

Heydər Əliyev siyasətdə ləyaqət timsalıdır və siyasətlə ləyaqətin necə uyuşduğunu neçə illərdir ki, siyasi arenada dönə-dönə sübuta yetirib...

Antik dövr siyasətçisi Siseron «Siyasət söhbətləri» (e.ə.06-43) əsərində «Mən elədiklərimə baxanda həm təəccüblənirəm, həm də peşman oluram, - yazırdı. – Təəccüblənirəm ki, bu qədər işi necə həyata keçirmişəm, peşmanam ki, gör nə qədər işlərim yarımçıq qalıb...»

Heydər Əliyev heç vaxt peşman olmayacaq, çünki möhtərəm prezidentimizin xalq üçün, müstəqilliyimizin möhkəmləndirilməsi üçün görəcəyi işlərin təməli, özülü möhkəm qoyulub. Bu arada qədim Roma filosofu və imperatoru Avreliy Antoninin (121-180) «Özümlə təkbətək» əsərindən belə deyimi xatırlatmaq yerinə düşər: « Siyasət xalqa, vətənə xidmət üçündür, əksinə olduqda bu fırıldaqçılıq deməkdir».

Heydər Əliyev siyasəti xalqın, millətin, Vətənin çiçəklənməsinin rəhnidir. Ona görə də qadirdir, ona görə də qalibdir.